

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 242 (21.394)

10 dekabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Çin Xalq Respublikasına dövlət səfərinə gedib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində dekabrın 9-da Sian şəhərindəki Terrakota Ordusu (yeraltı heykəllər ordusu) Muzeyi ilə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 9-da Çinin Şaansi vilayətinin qubernatoru Lou Çincyan ilə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Çinin Sian şəhərində Şaansi Avtomobil Zavodu ilə tanış olub.

* * *

Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Sian şəhərindən paytaxt Pekinə gedib.

Prezident İlham Əliyevi Çinin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.




## "Ümummilli lider Heydər Əliyev və "Kitabi-Dədə Qorqud" dastanları" mövzusunda elmi-praktik konfrans

*Dekabrın 9-da Naxçıvan Qızlar Liseyində Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyev və "Kitabi-Dədə Qorqud" dastanları" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.*

Konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli açaraq "Kitabi-Dədə Qorqud" dastanlarının geniş təbliğinin, təşviqinin, Dədə Qorqud irsinin daha dərindən öyrənilməsinin ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulamışdır.

Elman Cəfərli qeyd etmişdir ki, sovet ideologiyasının hökm sürdüyü bir dövrdə – 1969-cu ildə ulu öndərin Azərbaycan rəhbərliyinə gəlişindən sonra "Kitabi-Dədə Qorqud" dastanlarının sistemli şəkildə tədqiqi və təbliği istiqamətində mühüm işlər görülmüşdür. 1975-ci ildə ulu öndərin tapşırığına əsasən, "Dədə Qorqud" bədii filmi çəkilmişdir. Ümummilli liderimiz xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra da bu məsələyə xüsusi diqqət göstərmiş, 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında Fərman, 1999-cu il fevralın 21-də isə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" Sərəncam imzalamışdır. 1998-ci ildə YUNESKO-da beynəlxalq simpoziumun təşkili eposun dünya miqyasında təbliği işinə ciddi töhfə idi. Ümummilli liderin 2000-ci ildə imzaladığı növbəti Fərman isə "Bakıda Dədə Qorqud heykəlinin ucaldılması və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması" ilə bağlı olmuşdur.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Azərbaycan Respublikası Prezidentinin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il fevralın 20-də imzaladığı Sərəncamın, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2015-ci il iyulun 25-də imzaladığı Sərəncamın bu sahədə aparılan işlərin uğurla davam etdirilməsinə geniş imkanlar açdığını vurğulamışdır.

Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva qeyd etmişdir ki, "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın tarixi keçmişini əks etdirən möhtəşəm sənət abidəsidir. Əsərdə vətənpərvərlik, qəhrəmanlıq, müdriklik, oğuz türklərinin dünyagörüşü, mənəvi dəyərləri, adət-ənənələri, qədim Naxçıvanın toponimləri əks olunmuşdur. Dastan dilimizin incəliklərini, tarixi hadisələri və şəxsiyyətləri, xalqımızın mədəniyyətini öyrənməkdə əvəzsiz mənbədir. "Kitabi-Dədə Qorqud" həm də dünyada dastan mədəniyyətinin zirvəsidir. Bu dastan milli təfəkkürümüzün dünyaya bəxş etdiyi unikal ədəbi abidədir.

Ulu öndər Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının təbliği və təşviqi istiqamətində gördüyü misilsiz işlərdən danışan Aidə Allahverdiyeva bildirmişdir ki, hazırda Prezident cənab İlham Əliyev bu ənənəni əzmlə davam etdirir. 2013-cü ildə Bakıda Dədə Qorqud parkı salınmış və "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılmışdır. Abidənin açılış mərasimində Prezident İlham Əliyev dastanı Azərbaycan xalqının milli sərvəti adlandıraraq qeyd etmişdir ki, hər bir azərbaycanlı üçün əziz olan bu əsərdə xalqımızın həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur.

"Kitabi-Dədə Qorqud" irsinin araşdırılması, Naxçıvanla bağlılığı və yaşadılması istiqamətində muxtar respublikada da mühüm işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində "Dədə Qorqud meydanı"nın salınması haqqında" 9 mart 1999-cu il tarixli Sərəncamı ilə Naxçıvan şəhərində Dədə Qorqudun abidəsi ucaldılmış və Dədə Qorqud meydanı yaradılmışdır.

Naxçıvan Dövlət Universitetinin professoru, Əməkdar elm xadimi Hüseyn Həşimli demişdir ki, ulu öndərimiz Heydər Əliyevin çoxşaxəli möhtəşəm fəaliyyətində və mükəmməl nəzəri-ideoloji təlimində ədəbiyyat məsələləri də mühüm yer tutur. Bu baxımdan ümummilli liderimizin "Kitabi-Dədə Qorqud" dastanlarına münasibəti, bu qiymətli eposa göstərdiyi hərtərəfli diqqət böyük əhəmiyyət daşıyır. Bu da təsadüfi deyil. Çünki bəşər sivilizasiyasına misilsiz töhfələr bəxş etmiş Azərbaycanımızın ən möhtəşəm ədəbi abidələri sırasında "Kitabi-Dədə Qorqud"un xüsusi yeri vardır. Xalqımızın qədim adət-ənənələri, dünyagörüşü, yaşam tərzi, məişəti, zəngin mənəvi keyfiyyətləri, qəhrəmanlıq ruhu, mərdliyi, doğma torpağa bağlılığı, yurd sevgisi eposda mükəmməl şəkildə ifadə olunmuşdur.

Qeyd olunmuşdur ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da "Kitabi-Dədə Qorqud"la əlaqədar çoxsaylı işlər görülmüş və görülməkdədir. Naxçıvanda keçirilən elmi konfranslar, təşkil olunan açıq dərslər, dəyirmi masalar, kütləvi informasiya vasitələrində verilən müvafiq materiallar bu baxımdan təqdirəlayiqdir. "Naxçıvanda Dədə Qorqud" mövzusunda beynəlxalq elmi simpoziumun keçirilməsi də ən mühüm tədbirlər sırasındadır. Bütün bunlar möhtəşəm mənəviyyat abidəmiz olan "Kitabi-Dədə Qorqud"a ulu öndər Heydər Əliyevin göstərdiyi böyük diqqətin uğurlu davamıdır.

Sonra Naxçıvan Qızlar Liseyinin müəllimləri Rəfiqə Abdullayeva "Kitabi-Dədə Qorqud" dastanları milli varlığımızdır", Səkinə Kazımova isə "Kitabi-Dədə Qorqud" dastanlarında qadın obrazı" mövzularında çıxış etmişlər.

Konfransda mövzu ətrafında çıxışlarda elmi faktlara söykənən fikirlər səsləndirilmiş, "Kitabi-Dədə Qorqud" dastanlarının qədim Naxçıvanla bağlılığı xüsusi vurğulanmışdır.

Sonra Naxçıvan Qızlar Liseyinin şagirdləri ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş şeirləri, Dədə Qorqudun kəlamlarını səsləndirmiş, "Kitabi-Dədə Qorqud" dastanlarından seçilmiş səhnəciklər göstərmişlər.

## Elektron xidmətlərin səmərəli təşkili, təkmilləşdirilməsi ilə bağlı görüş keçirilib

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində "Elektron xidmətlərin yenilik və müasir texnologiyalar əsasında səmərəli təşkili və təkmilləşdirilməsi" mövzusunda görüş keçirilib.***

Turizm və otelçilik sahəsi üzrə fəaliyyət göstərən hüquqi şəxslərin iştirak etdiyi tədbirdə Dövlət Miqrasiya Xidmətinin şöbə rəisi Aysel Əliyeva elektron xidmətlərin yenilik və müasir texnologiyalar əsasında səmərəli təşkili və təkmilləşdirilməsinin, müasir, çevik idarəetmənin təmin edilməsinin, dövlət orqanı ilə vətəndaş arasında qarşılıqlı münasibətlərin səmərəliliyinin və keyfiyyətinin artırılmasının, birbaşa münasibətlərin minimuma endirilməsinin, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının əhəmiyyətindən danışıb.

Tədbirdə xidmətin əməkdaşlarından Əfqan Əliyevin, Rahib Kərimovun, Sadiq Qasımovun çıxışları olub. Çıxışlarda qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 15 iyul 2011-ci il tarixli Fərmanının icrası ilə əlaqədar olaraq Dövlət Miqrasiya Xidmətinin rəsmi internet səhifəsi yaradılıb. Dövlət Miqrasiya Xidməti üçün konkret sahələr üzrə 9 xidmət növü müəyyənləşdirilib. Hər bir xidmət növü üzrə inzibati reqlamentlər hazırlanıb və sayt üzərində yerləşdirilib. İnzibati reqlamentlərdə, əsasən, xidmətin interaktiv və ya informativ olması, sənədləşmələr, hüquqi əsasları göstərilir. Hər bir müraciət edən şəxs inzibati reqlamentlərlə tanış olaraq müvafiq



xidmət növü üzrə xidmətə müraciət edə bilər.

Bildirilib ki, hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin yeni inzibati binasında müasir standartlara cavab verən, elektron xidmətlərin göstərilməsi məqsədilə mərkəzi server sistemi quraşdırılıb, əhaliyə, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılıb. Demək olar ki, Dövlət Miqrasiya Xidməti üçün nəzərdə tutulmuş bütün xidmət növü üzrə sahələr avtomatlaşdırılıb. Əcnəbi və vətəndaşlığı olmayan şəxslər, eyni zamanda Azərbaycan Respublikası vətəndaşları *www.miqrasiya.nakhchivan.az* internet səhifəsinə daxil olaraq "Elektron xidmət" bölməsini seçməklə elektron xidmətlərdən faydalana bilərlər.

Sonra elektron xidmətlərdən istifadə qaydaları ilə bağlı slayd nümayiş etdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına, işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaradıb.***

## Cari ilin son əmək yarmarkalarında 130 nəfərə işə göndəriş verilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, xidmət tərəfindən cari ilin əvvəlindən başlayaraq muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılıb, müəssisə və təşkilatlarda mövcud olan boş iş yerləri haqqında məlumatların hər ay toplanması təmin edilib, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi məqsədilə rübdə bir dəfə olmaqla müvafiq müəssisələrdə sorğular keçirilib. 2015-ci il noyabr ayının 24-də isə muxtar respublikada cari ilin son əmək yarmarkalarının keçirilməsinə başlanılıb və müvafiq tədbirlər dekabrın 4-də başa çatıb. Xidmətdən verilən məlumata görə, keçirilən yarmarkalara muxtar respublika üzrə 149 təşkilatdan 1415 boş iş yeri çıxarılıb, 130 nəfər işaxtarana işə göndəriş verilib.

Qeyd edək ki, 2015-ci ilin 11 ayı ərzində məşğulluq xidməti orqanlarında işsizlik statusu alan olmayıb.

**Xəbərlər şöbəsi**

10 dekabr Beynəlxalq İnsan Hüquqları Günüdür

# Muxtar respublikada insan hüquq və azadlıqları tam bərqərar olmuşdur

***Hər il dekabrın 10-u dünyada “İnsan Hüquqları Günü” kimi qeyd olunur.***

Ötən əsrin sonlarında müstəqilliyini yenidən qazanan Azərbaycan Respublikası demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş, Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları haqqında Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara qoşulmuşdur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunu öz inkişaf yolu kimi bəyan etmişdir. Konstitusiyamızda İnsan hüquqları haqqında Ümumi Bəyannamə və insan hüquqlarına dair digər beynəlxalq aktlarla müəyyən edilən əksər hüquq və azadlıqlar, yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər, fundamental hüquq və azadlıqlar çox geniş şəkildə öz əksini tapmışdır. Ali Qanunumuzun üçdəbir hissəsini təşkil edən insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edilmişdir.

Konstitusiyanın qəbulu ölkədə hüquqi islahatların keyfiyyətcə yeni mərhələsinin başlamasına təkan vermiş, mühüm normativ-hüquqi aktlar qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan “İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” 1998-ci il 22 fevral tarixli Fərman və “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmişdir. Azərbaycan Respublikası 1996-2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Ulu öndər tərəfindən 1993-cü ildən tətbiqinə moratorium qoyulan ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan, bütövlükdə, Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərliyin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəltmişdir.

Azərbaycan Respublikası 2001-ci ildə “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyasını ratifikasiya etmişdir. Həmçinin ölkəmizdə insan hüquq və azadlıqlarının təminatı sahəsində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması prosesinin davamı olaraq 2002-ci il dekabrın 24-də “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edilmişdir. 2006-cı il mayın 9-da BMT Baş Assambleyasında keçirilən seçkilər nəticəsində Azərbaycanın BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilməsi də bu istiqamətdə ölkəmizdə əldə olunan ən mühüm nailiyyətlərdəndir.

Bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. İnsan hüquqlarının qorunmasını və bu sahədə görülən tədbirlərin genişləndirilməsini daim diqqət mərkəzində saxlayan ölkə başçısının “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq olunması haqqında” 2006-cı il 28 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ölkəmizdə insan hüquq və azadlıqlarının davamlı inkişafına zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamına əsasən isə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” təsdiq edilmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı mühüm islahatlar həyata keçirilir. Muxtar respublikada insan hüquqlarının müdafiəsinin daha səmərəli təmin edilməsi məqsədilə 2006-cı il fevralın 20-də “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Qanun qəbul edilmiş, insan hüquqlarının yeni və alternativ müdafiə mexanizmi olan Müvəkkil təsisatı yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində hüquq institutlarının inkişaf etdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, hüquq müdafiə və məhkəmə orqanlarının, həmçinin dövlət orqanlarının fəaliyyəti insan hüquqlarının tələblərinə uyğun olaraq daim təkmilləşdirilmişdir. Belə ki, əhalinin daha yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi məqsədilə 2008-ci il yanvarın 8-də “Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında” Qanun qəbul edilmiş, burada fəaliyyət göstərən vəkillərin sayının artırılması üçün Vəkillər Kollegiyasına əlavə qəbul imtahanlarının Naxçıvan Muxtar Respublikasında keçirilməsi təmin edilmiş, vəkillik institutunun hüquqi statusu müəyyən edilmişdir.

Hər bir ölkədə demokratik inkişafın, insan hüquq və azadlıqlarının mühüm göstəricilərindən biri də mətbuat və söz azadlığının təmin olunmasıdır. Muxtar respublikada kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti təmin edilmiş, teleradioların, qəzetlərin, nəşriyyatların maddi-texniki bazası gücləndirilmişdir. Söz, fikir, məlumat azadlığı, o cümlədən mətbuatın inkişafı ilə bağlı həyata keçirilən islahatlar, azad mətbuatın fəaliyyətinin getdikcə gücləndirilməsi insanların öz fikrini sərbəst şəkildə ifadə etmək hüququnu təmin etmişdir. Hər il ölkə və dünya mətbuatını təmsil edən yüzlərlə jurnalist muxtar respublikaya səfər edir, Naxçıvanla bağlı silsilə verilişlər, filmlər, məqalələr hazırlanaraq geniş tamaşaçı və oxucu kütləsinə təqdim olunur.

Naxçıvan Muxtar Respublikasında əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi istiqamətində də mühüm işlər görülür. Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi, sosial, tibbi və peşə reabilitasiyasının təmin edilməsi istiqamətində görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Uşaq Bərpa Mərkəzi və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” isə müvafiq kateqoriyadan olan uşaqların təhsil almaq hüququnu təmin etməklə onların cəmiyyətə inteqrasiyası istiqamətində yeni mərhələnin başlanğıcını qoymuş, məhdud fiziki imkanlı uşaqlar üçün distant tədris mərkəzi fəaliyyətə başlamışdır.

Muxtar respublikada qadınların hüquqlarının müdafiəsi də daim diqqət mərkəzində saxlanılır. Bu gün muxtar respublikada qadınlar cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak edir, dövlət idarəetməsi, habelə seçkili orqanlarda təmsil olunurlar. Qadınların peşələrə yiyələnməsi, ixtisaslarının artırılması ilə əlaqədar müxtəlif peşə hazırlıq kurslarına cəlb edilməsi onların məşğulluğunun təmin edilməsinə geniş imkanlar yaratmışdır. Bununla yanaşı, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və işlə təminatı məqsədilə hər il muxtar respublikanın şəhər və rayonlarında əmək yarmarkaları keçirilir, Naxçıvan Regional Peşə Tədris Mərkəzində müxtəlif peşə hazırlığı kursları təşkil edilir.

Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin, şəhid ailələrinin, həmçinin 1941-1945-ci illər müharibəsi əlillərinin mənzil və minik avtomobilləri ilə təmin olunması və onların sosial müdafiəsinin daha da gücləndirilməsi də muxtar respublikada insan hüquq və azadlıqlarının mühüm ifadəsidir.

***Ölkəmiz inkişaf etdikcə demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları cəmiyyət həyatında getdikcə daha dolğun, real məzmun kəsb edir. Ona görə də Azərbaycanda, o cümlədən muxtar respublikada insan hüquq və azadlıqlarının qorunması sahəsində həyata keçirilən tədbirlər ardıcıl xarakter almışdır.***

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti***

# Elektron xidmətlərin tətbiqi əmək pensiyalarının təyinatını və ödənişini asanlaşdırmışdır

*Ölkəmizdə aparılan uğurlu islahatlar zamanı sığorta-pensiya sahəsi də diqqət mərkəzində saxlanılmış, pensiyaçılar üçün rahat və şəffaf, beynəlxalq standartlara uyğun xidmət təmin etmək üçün tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikasında bu sahəyə göstərilən yüksək diqqət və qayğı sayəsində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanlarında müasir standartlara cavab verən iş yerləri yaradılmış, muxtar respublikada sığorta-pensiya sisteminin yüksək səviyyədə qurulması əhalinin bu sistemin üstünlüklərindən maksimum yararlanmasına şərait yaratmışdır.*

Qeyd edək ki, vətəndaşların pensiya təminatı sahəsində 2006-cı il 1 yanvar tarixində qəbul edilmiş “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun müstəsna əhəmiyyəti vardır. Həmin ildən etibarən ölkəmizdə əmək pensiyasının baza, sığorta və yığım hissələrindən ibarət üçpilləli sistemin yaradılması nəzərdə tutulmuşdur.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununda əmək pensiyasının 3 növü müəyyənləşdirilir: yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyası.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən, 63 yaşına çatmış kişilərin və 60 yaşına çatmış qadınların azı 12 il sığorta stajı olduqda yaşa görə əmək pensiyası hüququ yaranır.

Əlilliyə görə əmək pensiyası sığortaolunanın xəstəlik və ya xəsarət nəticəsində yaranan əqli və fiziki qüsurlara görə əmək qabiliyyətinin məhdudlaşması ilə əlaqədar təyin edilir. Əlillik qrupları, əlilliyin səbəbləri, habelə onların başvermə müddəti Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti tərəfindən qanunvericiliyə uyğun müəyyən olunur. Əlilliyə görə əmək pensiyası əlil və ya sağlamlıq imkanı məhdud sığortaolunana, ümumilikdə, sığorta stajı 5 ildən az olmamaq şərtilə əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir.

Vəfat etmiş və ya həlak olmuş ailə başçısının öhdəsində olan aşağıdakı ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır:

- *vəfat etmiş və ya həlak olmuş şəxsin övladları: 18 yaşına çatmamış, 18 yaşından yuxarı əlil və təhsil müəssisələrinin əyani şöbəsində təhsil alanlar, lakin 23 yaşına çatanadək;*
- *ata, ana, ər, arvad qanunla müəyyən edilmiş pensiya yaşına çatmışdırsa, yaxud I və ya II qrup əlildirsə;*
- *əgər valideynlərdən biri və ya ər (arvad), yaxud baba, nənə, qardaş, bacı vəfat etmiş və ya həlak olmuş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxırsa və işləmirsə.*

Ailə başçısını itirməyə görə əmək pensiyası ölüm günündədək ailə başçısının “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununda göstərilən sığorta stajı (ümumilikdə, sığorta stajı 5 ildən az olmamaq şərtilə əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay) olduqda təyin edilir.

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasının elektron hökumət portalına (***www.e-hokumet.nmr.az***) və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsinə 20 adda elektron xidmət inteqrə edilmişdir. Hazırda həmin elektron xidmətlərdən 15-i fəaliyyət göstərir. Digər elektron xidmətlərin də yaxın vaxtlarda fəaliyyət göstərməsi üçün fond tərəfindən müvafiq işlər aparılır.

Elektron xidmətlərdən istifadə etmək üçün ***dsmf.nakhchivan.az*** internet səhifəsində yerləşdirilmiş elektron xidmətlər bölməsinə daxil olmaq lazımdır.

Qeyd edək ki, yaşa görə əmək pensiyası hüququ yaranmış şəxslər öz pensiyalarının məbləğini “Pensiya kalkulyatoru” elektron xidməti vasitəsilə hesablaya bilərlər. Xidmətdən istifadə etmək üçün elektron xidmətlər bölməsindən “Pensiya kalkulyatoru” elektron xidmətini seçmək lazımdır. Bu xidmətdən istifadə etmək üçün istifadəçi elektron imza sahibi olmalıdır. İstifadəçi 1 yanvar 2006-cı il tarixədək iş stajını illər və aylar üzrə ayrılıqda daxil edir, sorğu real vaxt rejimində avtomatik olaraq cavablandırılır. Bu zaman istifadəçinin soyadı, adı, atasının adı, sosial sığorta nömrəsi göstərilməklə pensiyanın məbləği barədə ətraflı məlumat təqdim olunur.

2015-ci ilin dekabr ayından isə pensiya kalkulyatorunun artıq smartfon telefonlar üçün mobil versiyası hazırlanmışdır. Artıq mobil telefonlar vasitəsilə də vətəndaşlar pensiya kalkulyatorunda gələcəkdə əldə edəcəkləri pensiyanın məbləğini hesablaya biləcəklər. Pensiya kalkulyatorunu mobil telefona yüklədikdən sonra müvafiq xanaları dolduraraq əldə olunacaq pensiyanın məbləğini öyrənmək olar. Qeyd edək ki, burada da 2006-cı ilə qədər iş stajı və 2006-cı ildən başlayaraq hər il üçün ayrı-ayrılıqda cəmi əməkhaqqı barədə məlumatları əlavə etmək lazımdır. Bütün məlumatlar qeyd olunduqdan sonra mobil proqramda göstərilən kalkulyator işarəsinə toxunmaqla açılan pəncərədə pensiya kapitalı, pensiyanın baza və sığorta hissəsi, aşağıda isə pensiyanın məbləğini öyrənmək mümkündür.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 34-cü maddəsində göstərilir ki, əmək pensiyaçısının yaşa görə əmək pensiyası növündən əlilliyə görə əmək pensiyası növünə keçirilmə istisna olmaqla, əmək pensiyasının bir növündən digər növünə keçmə hüququ vardır. Əgər əvvəllər əmək pensiyaçıları əmək pensiyasının bir növündən digər növünə keçmək üçün ərizə və digər təsdiqedici sənədləri Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarına təqdim edirdilərsə, hazırda “Pensiya təyinatının və pensiya növünün dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu” elektron xidmətinin köməyi ilə buna ehtiyac qalmır. Əmək pensiyaçıları bu xidmətdən istifadə edərək pensiyanın bir növündən başqa bir növünə keçmə hüquqlarını reallaşdıra bilərlər. Həmçinin “Pensiyaçıya məlumatların verilməsi” elektron xidməti vasitəsilə pensiyaçılar əmək pensiyasının təyinolunma tarixi, məbləği və növü barədə fərdi məlumatları əldə edə bilərlər.

Qeyd edək ki, 2014-cü ilin noyabr ayından etibarən fond tərəfindən avtomatlaşdırılmış qaydada əmək pensiyalarının təyinatına başlanılmışdır. Əvvəllər pensiya hüququ qazanan vətəndaşlar pensiya təyinatı üçün qanunvericiliklə müəyyənləşdirilmiş sənədləri toplayıb Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarına təqdim edirdilər. Hazırda yaşa görə əmək pensiyası hüququ qazanmış hər bir vətəndaş heç bir sənəd toplamadan və vaxt itirmədən Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu Aparatının Pensiya şöbəsində yaradılmış avtomatlaşdırılmış pensiya təyinatı xidmətinə, ***(+99436) 550-59-79*** nömrəsinə zəng edərək yalnız şəxsiyyət vəsiqəsinin seriya nömrəsini bildirməklə real vaxt rejimində dərhal əmək pensiyası təyinatı hüququnu reallaşdırmaq imkanına malikdir. Məlumat üçün bildirək ki, muxtar respublika üzrə 2015-ci ilin 11 ayı ərzində 127 nəfərə bu sistem vasitəsilə yaşa görə əmək pensiyası təyin olunmuşdur.

Pensiyaların ödənişində kart sisteminin tətbiqi sığorta-pensiya sistemində həyata keçirilən ən uğurlu islahat tədbirlərindən biridir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarında uçotda duran bütün növ əmək pensiyaçılarının pensiyaları plastik bankomat kartları vasitəsilə ödənilir. Sığorta-pensiya ilə bağlı xidmətlərin avtomatlaşdırılması və “Elektron hökumət” prinsiplərinə uyğun təmin edilməsi bu sahədə işin keyfiyyətinin və şəffaflığının artırılmasına zəmin yaradır.

**Rza QARAYEV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı***



# Müasir Naxçıvanın inkişaf modelini özündə əks etdirən yaşayış məntəqələrindən biri: *Qızılca*

*Culfa rayonunun Qızılca kəndi bu gün müasir Naxçıvanın inkişaf modelini özündə əks etdirən yaşayış məntəqələrindən biridir. Burada olduğum bir-iki saat ərzində kənddən və onun insanları ilə söhbətlərdən aldığım təəssüratları nə dərəcədə oxucularımıza çatdıracağam, bunu deyə bilmərəm. Bildiyim odur ki, yurda bağlılıq, insana qayğı olan yerdə belə təəssüratların istənilən qədər zəngin olması təbiidir və bu təəssüratları muxtar respublikanın bütün bölgələrində hər il dəfələrlə yaşamışam. Qızılcada gördüklərim isə yadıma ümummilli liderimizin sözlərini saldı: **“İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”.** Bu gün ulu öndərin planlarının, arzularının yerinə yetirildiyini bu qədim torpağın istənilən ünvanında görmək olar.*

Muxtar respublikada yaradılan şərait insanların məskunlaşmasını və məşğulluğunu tam təmin edib. Artıq kənddən şəhərə və ya muxtar respublikadan kənara getmək fikrində olanlar yoxdur. Hamı üçün öz doğma torpağında qurub-yaratmaq, məhsul bolluğuna nail olmaq üçün geniş imkanlar mövcuddur. Hər il sahibkarlara, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlər verilir. Əgər dünən torpaqlarımızın bir hissəsi əkilməmiş qalırdısa, bu gün həyata keçirilən məqsədyönlü tədbirlər insanları bu qiymətli sərvətlərdən səmərəli istifadə etməyə ruhlandırıb. Bu isə muxtar respublikada yerli istehsal məhsullarının bolluğunu yaradıb. Daxili bazarda bolluq həm də süfrələrimizin bolluğu olmaqla, muxtar respublikaya kənardan gətirilən məhsullara tələbatı azaldıb.

* * *

Qızılca kəndi rayon mərkəzindən 22 kilometr məsafədə yerləşir. Bu yaşayış məntəqəsində noyabr ayının 10-da kənd avtomobil yolunun, məktəb binasının, kənd və xidmət mərkəzlərinin açılışları olub. Qızılca yaxınlıqda yerləşən Kırna kənd inzibati ərazi dairəsinin tərkibindədir. Ötən illərdə Kırnada da kompleks quruculuq tədbirləri həyata keçirilib. Bu tədbirlər hesabına kırnalı uşaqlar yeni məktəb binasında təhsil alır, sakinlər müasir həkim ambulatoriyasının xidmətindən istifadə edirlər. Xidmət mərkəzinin fəaliyyəti də razılıq doğurur. Sözümün canı ondadır ki, indiyədək qızılcalılar öz problemlərini həll etmək üçün Kırnaya üz tuturdular. Qızılcada quruculuq tədbirləri çərçivəsində kənd mərkəzi də istifadəyə verilib. Kənd sakini Məmməd Paşayev deyir ki, kiçik bir məsələdən ötrü yayın istisində, qışın soyuğunda vaxt itirərək Kırnaya getməli olurduq. Daha buna ehtiyac yoxdur.

Kırna kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Tofiq Bayramovla yeni obyektlərə baş çəkdik. Bu ünvanlarda yaradılmış müasir iş şəraitinin yüksək səviyyədə olduğunu gördük. Qeyd edək ki, iki mərtəbədən ibarət olan kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndə üçün iş otağı, kitabxana, mədəniyyət evi və feldşer-mama məntəqəsi yerləşir. Mərkəzin binasında 40 yerlik tədbirlər zalı istifadəyə verilib, birinci mərtəbədə feldşer-mama məntəqəsi üçün 3 otaq ayrılıb. Məntəqənin müdiri Münəvvər Abdullayeva bildirdi ki, muxtar respublikada insanların sağlamlığına göstərilən diqqət və qayğı getdikcə artmaqdadır. Bizə yaradılan belə şərait də həmin qayğının ifadəsidir və burada çalışan səhiyyə işçilərinin məsuliyyət hissini bir qədər də artırıb. Çalışacağıq ki, kənd sakinlərinin sağlamlığı üçün bütün qüvvəmizi sərf edək, bizə göstərilən etimadı doğruldaq.

Kompleks quruculuq tədbirləri nəticəsində istifadəyə verilən yeni məktəb binası kəndin simasına xüsusi yaraşıq gətirib. Müasir arxitektura üslubunda inşa olunmuş yeni bina 3 mərtəbədən ibarətdir. Binada müəllim və şagirdlərin ixtiyarına 12 sinif otağı, o cümlədən 3 elektron lövhəli sinif, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet və idman zalı verilib. Məktəbdə 11 kompüter dəsti quraşdırılıb və internetə qoşulub. Məktəbin direktoru Namiq Nəzərov deyir ki, müstəqilliyimizin ilk illərini xatırlayanlar ümummilli liderimiz Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən nəinki Naxçıvan, ümumilikdə, ölkəmiz üçün taleyüklü tədbirlər həyata keçirdiyini görüblər. Düşmənlə üz-üzə dayanan bu qədim yurd yerinin müdafiəsi üçün ulu öndər cahanşümul xidmətlər göstərib. O vaxtlar kommunikasiya xətləri kəsilən, yolları bağlanan bu qədim diyarda ümummilli liderin çıraq işığında imzaladığı sənədlər bu günümüzə, sabahımıza hesablanmışdı. O illərdə dahi şəxsiyyət naxçıvanlıların inamlarını özünə qaytardı. Yurd qədri bilən insanlar da bu böyük siyasətçinin ətrafında sıx birləşdilər, onunla bir oldular...

Bu gün kənd yaşayış məntəqələrində həyata keçirilən quruculuq tədbirləri məhz ulu öndərin müəyyənləşdirdiyi siyasətin bəhrələridir. Bu bəhrələrdən Qızılca kəndinə də pay düşüb.

Məktəbin müəllimi Cəbrayıl Hüseynov söhbətə qoşulur: muxtar respublikada istifadəyə verilən yeni məktəb binaları müasir tələblər səviyyəsindədir. Məktəblərin informasiya texnologiyaları ilə təminatı, təhsilin informasiyalaşdırılması, yaşayış məntəqələrində sürətli internetə çıxış imkanlarının yaradılması distant tədrisin tətbiqinə, təhsilin internet üzərindən təşkilinə şərait yaradır. Artıq məktəblərdə quraşdırılan elektron lövhələr ümumtəhsil məktəbləri arasında, eləcə də məktəblərlə muzeylər arasında interaktiv əlaqələrin qurulmasına imkan verir. Bizim məktəbdə də bu məsələ öz həllini tapıb. Açılış günü elektron lövhəli sinifdə muxtar respublikanın 200 ümumtəhsil məktəbi ilə Cəlil Məmmədquluzadənin ev-muzeyi arasında distant dərs keçilməsi bir daha sübut etdi ki, təhsil ocaqlarında müasir texnologiyaların tətbiqi artıq öz bəhrəsini verir.

Məktəbin açılış mərasimində Ali Məclis Sədrinin verdiyi tövsiyələr pedaqoji kollektivin fəaliyyət istiqamətinə çevrilib: ***“Məktəbin qarşısında duran əsas vəzifə yaxşı bilik vermək, gənclərin marağını nəzərə alaraq müəyyən bir peşəyə istiqamətləndirmək və gələcəyin əsl vətəndaşını yetişdirməkdən ibarətdir. Hər bir məktəbin fəaliyyəti onun yetişdirdiyi təhsilli və vətənpərvər gənclərlə ölçülür. Əgər məktəbdə təhsil alan gənc vətənpərvərdirsə, bir peşəyə meyillidirsə və öz gələcəyini, ölkəsinin gələcəyini düşünürsə, deməli o məktəbin fəaliyyəti hədər getməmiş, məktəbdə təlim-tədris və tərbiyə işi düzgün qurulmuşdur. Qızılca kənd tam orta məktəbinin nailiyyətləri onu deməyə əsas verir ki, məktəbdə tələbkarlıq və nizam-intizam vardır. Bu prinsip davam etdirilməli, nailiyyətlər daha da artırılmalıdır”.***

Qeyd edək ki, kompleks quruculuq tədbirləri çərçivəsində kənddə xidmət mərkəzi inşa olunub, 2,4 kilometrlik yol genişləndirilərək asfalt örtük salınıb, yolda su keçidləri və beton kanal tikilib, kənddaxili yollar abadlaşdırılıb, fiber-optik kabel, rabitə və yeni elektrik xətləri çəkilib. Kəndin qaz və su təchizatı da yaxşılaşdırılıb.

* * *

Müasirliyə qovuşan Qızılcada söhbət etdiyim insanların görülən işlərə münasibətini belə ümumiləşdirmək olar: muxtar respublikanın hansı bölgəsinə üz tutsaq, son illər ərzində xeyli uğurlara imza atıldığını görərik. Burada bir məqam xüsusi vurğulanmalıdır. Həyata keçirilən tədbirlər insan amilinə xidmət edir, heç bir sahəyə fərq qoyulmur: istər şəhər olsun, istər kənd; istər sənayenin, istər kənd təsərrüfatının inkişafı; istər sahibkarlığa, istərsə də dövlət qurumlarının normal fəaliyyətinə qayğı.

*Dünən saatlarla işığa həsrət qalan Naxçıvan bu gün elektrik enerjisi ixrac edir. Ən ucqar dağ kəndlərində belə, mavi yanacaq şölələnir. Bu gün doğma Naxçıvana gələn qonaqlar da bu qədim diyarın qovuşduğu xoş günləri görür, burada yaradılmış sabitliyi onlar da təqdir edirlər. Sabitlik olan yerdə hər bir uğura nail olmaq mümkündür. Naxçıvan iyirmi ildir ki, bu həyatı yaşayır. Belə yaşam tərzinin bünövrəsinin möhkəm özüllərlə qoyulması sabah bu diyarın daha yaxşı günlərdə yaşayacağının təminatıdır.*

✍ **Muxtar MƏMMƏDOV**

# Ət məhsulları kompleksində istehsal olunan məhsullara tələbat artır

***Əhalinin əsas istehlak mallarına olan tələbatının ödənilməsi və idxaldan asılılığın aradan qaldırılması məqsədilə son illər muxtar respublikamızda ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilmiş, 450-dən çox müxtəlif təyinatlı emal və sənaye müəssisəsi həyata vəsiqə almışdır.***






“Bərəkət Ət Məhsulları Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti də dövlət qayğısından bəhrələnmiş, Babək qəsəbəsində istehsal müəssisəsi üçün torpaq sahəsi ayrılmış, 2012-ci ilin iyun ayından burada müasir layihə əsasında yeni ət məhsulları kompleksinin tikintisinə başlanılmış və 2013-cü ilin may ayında istifadəyə verilmişdir.

Ümumi sahəsi 20 min kvadratmetr olan kompleksdə iribuynuzlu və xırdabuynuzlu heyvanların kəsim sexləri, kolbasa və sosiska istehsalı sahələri, soyuducu kameralar, iş otaqları, hazır məhsulların satışı mağazası istifadəyə verilmiş, kəsimə hazırlanan heyvanların saxlanılması üçün hər cür şərait yaradılmışdır. Ümumilikdə, müəssisənin yaradılmasına 3 milyon 248 min manat vəsait sərf olunmuşdur ki, bunun da 1 milyon 530 min manatı Sahibkarlığa Kömək Fondu tərəfindən ayrılmış güzəştli kreditdir.

Müəssisədə gün ərzində 100 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvanların kəsimini həyata keçirmək mümkündür. Burada müxtəlif dondurucu temperatura malik 8 soyuducu kamera yaradılmış, məhsulların ticarət mərkəzlərinə çatdırılması məqsədilə 2 ədəd soyuducu yük yeri olan nəqliyyat vasitəsi alınmışdır. Müəssisədə iri doğranmış, paketlənmiş, çəkilmiş, eləcə də yarımfabrikat paketlənmiş ət məhsulları istehsal olunur. Kompleksdə yaradılan kolbasa istehsalı sahəsinin gündəlik istehsal gücü 2 tondur. İstifadə olunan xammalın mütəmadi olaraq laborator müayinədən keçirilməsi burada keyfiyyətli kolbasa istehsalına imkan verir.

Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmış müəssisədə istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilmişdir. Həmçinin müəssisənin daim təzə ətlə təmin olunması üçün ayrı-ayrı rayonlarda fəaliyyət göstərən fermer və fərdi sahibkarlarla əlaqələr yaradılmışdır. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması məqsədilə alınmış soyuducu kameralı xüsusi avtomaşınlardan səmərəli istifadə edilir. “Bərəkət Ət Məhsulları Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində 30 nəfər daimi işlə təmin olunmuşdur. Hazırda müəssisədə müxtəlif çeşidlərdə ət və ət məhsulları, hisə verilmiş və bişirilmiş kolbasa məmulatları, eləcə də sosiska istehsal olunur.

Burada ət və ya hazır məhsul laborator analizdən keçirildikdən sonra istehsala və ya satışa buraxılır. Xammal soyuducu anbarda mənfi 18 dərəcədə, hazır məhsul isə müsbət 8-10 dərəcədə xüsusi kameralarda saxlanılır.

“Bərəkət” əmtəə nişanı ilə satışa çıxarılan ət və ət məhsulları alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dadı-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Kompleksdə müxtəlif çeşidlərdə ət və ət məhsullarının istehsal olunması istehlakçılara seçim imkanı yaradır. İstehsal olunan keyfiyyətli ət məhsulları əhalinin və dövlət tərəfindən təminatı həyata keçirilən qapalı müəssisələrin tələbatını tamamilə ödəyir. Gələcəkdə müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışı və xarici bazarlara çıxarılması da planlaşdırılır.

Ət məhsulları kompleksində olarkən ayrı-ayrı rayonlardan kəsim üçün iribuynuzlu və xırdabuynuzlu heyvanlar gətirmiş fermer və fərdi sahibkarlardan Qabil Babayev, Əsgər Hüseynov, Mahir Ələkbərov, Niyazi Qədimovla söhbət etdik. Onlar qeyd etdilər ki, son illər muxtar respublikamıza gətirilən və lizinq yolu ilə sahibkarlara verilən damazlıq düyələr ətlik və südlük cins mal-qaranın artımına səbəb olmuşdur. Kəsimə verilən ətlik cins mal-qaranın orta hesabla hər birinin 500-600 kiloqram əti olur ki, bu qədər əti də hər hansı bir yaşayış məntəqəsində və ya rayon mərkəzində 2-3 günə satıb qurtarmaq olmur, nəticədə, məhsul zay olurdu.

Belə bir kompleksin istifadəyə verilməsi ilə problem aradan qaldırılmış, sahibkar istədiyi vaxt təsərrüfatında olan ətlik iribuynuzlu və xırdabuynuzlu heyvanları kompleksə təhvil verib pulunu nağd alır. Eyni zamanda sahibkar əgər, sadəcə, kəsim üçün müraciət edibsə, kəsilən heyvanın əti müəssisənin balansında olan xüsusi maşınlarla sifarişçilərin ünvanlarına çatdırılır.

Firma mağazasının xidmətlərindən istifadə edən Nadir Əzizov, Samir Həsənov, Nurəddin Şirzadov və başqaları ət məhsulları kompleksinin istehsal və xidmət baxımından yüksək şəraitə malik bir müəssisə olduğunu qeyd etdilər. Bu müəssisədə istehsal olunan müxtəlif çeşiddə keyfiyyətli ət və ət məhsullarından razılıqlarını bildirdilər.

✍ **Kərəm HƏSƏNOV**

*Tarixi abidələrlə zəngin olan Naxçıvan həm də qala tipli yaşayış yerlərinin diyarıdır. Bu ərazidə qədim qalalar hələ e.ə. III-II minilliklərdə formalaşmışdır. Məlumat üçün qeyd edək ki, Yaxın Şərq və Cənubi Qafqazda ən qədim qalalar məhz Naxçıvan ərazisindədir. Bu həm Naxçıvanın coğrafi mövqeyi, həm təbii sərvətləri, həm də onun qədim mədəniyyətlərin mərkəzi olması ilə bağlı olmuşdur. Qala tipli yaşayış yerlərinin tədqiqi Naxçıvanda məskunlaşan türkdilli tayfaların qədim dövlətçilik ənənələrinə malik olduğunu təsdiq edən faktlardan biridir.*

***Naxçıvan qalaları***

# Qazançı qalası





*Hörmətli oxucular! "Naxçıvan qalaları" rubrikasında təqdim edəcəyimiz yazılarda bu ərazidəki qalalar haqqında ətraflı məlumat verəcəyik. İlk yazımız Qazançı qalası barədədir.*

Qazançı qalası Culfa rayonunun eyniadlı kəndindən şimal-şərqdə yerləşərək Əlincəçayın hər iki sahilini əhatə edir. Qalanın sağ sahil və sol sahil hissəsi sıldırım qayalardan ibarət dərin dərə ilə bir-birindən ayrılır. Qalada Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun əməkdaşları və 1991-ci ildə Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası kəşfiyyat xarakterli tədqiqatlar aparmışlar. Nəticədə, qalanın hər iki hissəsinin planı hazırlanmışdır. Tədqiqatlar zamanı aşkar olunmuş arxeoloji materiallar Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyinə verilmişdir. Abidənin sahəsi 12 hektardır.

Qalanın sağ sahil hissəsi konusvarı təpə formasındadır. O, şərqdə sıldırım qayalarla məhdudlaşır. Onun şimal və cənub-qərb tərəfi maili olduğu üçün bu istiqamətlərdən qalaya qalxmaq mümkündür. Vaxtilə təpənin zirvəsində yarımdairəvi bürclərlə möhkəmləndirilmiş müdafiə istehkamı olmuşdur. Lakin hazırda bu qaladan əsər-əlamət qalmamışdır. Qazançı gölü tikilərkən abidənin bu hissəsi partladılaraq yerlə yeksan olunmuşdur. Hazırda abidənin cənub və şimal-qərb hissəsində iri daşlardan tikilmiş divarların qalıqları qalır. Burada mədəni təbəqənin qalınlığı 0,5 metrdən 1,5 metrə qədərdir. Mədəni təbəqə dağıdıldığından gil qab qırıqlarına tez-tez təsadüf olunur. Yerüstü materiallar dən daşlarından, çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqlarından ibarətdir. Yerüstü materialların böyük bir qismini boyalı qablar təşkil edir.

Abidənin sol sahil hissəsi sağ sahilə nisbətən xeyli böyükdür. Sol sahil qalası iki hissədən ibarət olub, hər tərəfdən sıldırım qayalıqlarla əhatələnib. Qalanın birinci hissəsi ikincidən çox da dərin olmayan dərə boyunca çəkilmiş ikiqat divarla ayrılır. Bu hissədə qalanın şərq tərəfində yarımdairəvi formada tikilmiş bürclərin qalıqları da vardır. Bürclərin biri daş divarla iki yerə bölünmüşdür.

Qalanın təbii cəhətdən əlçatmaz mövqedə yerləşməsinə baxmayaraq, o, hər tərəfdən iri daşlardan hörülmüş divarlarla əhatə olunmuşdur. Divarların eni müxtəlifdir. Şimal və şimal-şərqdə qala təbii cəhətdən zəif müdafiə olunduğu üçün burada divarların eni 2,6-3 metrə çatır. Divarlar 1-2 metr hündürlüyədək qalmışdır.

Tədqiqatlara əsasən demək olar ki, qala bəzi yerlərdə iki və üç cərgə divarla möhkəmləndirilmişdir. 1999-cu ildə burada aparılan araşdırmalar zamanı onun mərkəzi hissəsində Narınqalanın olduğu müəyyən edilmişdir. Tikinti texnikasına əsasən, Narınqalanın e.ə. II-I minilliklərə aid olduğunu demək olar. Yonulmuş iri qaya parçalarından inşa olunmuş divarlardan bəzən bir, bəzən isə iki sıra daş hörgülər qalmışdır. Narınqalanın qalanın mərkəzi və ən hündür hissəsində yerləşməsi həm qalanı, həm də qalaya yaxınlaşan yolları nəzarətdə saxlamağa imkan vermişdir.

Araşdırmalar göstərir ki, Naxçıvan e.ə. III-II minilliklərdə formalaşan, Cənubi Qafqaz və Yaxın Şərqin bir qismini əhatə edən Boyalı qablar mədəniyyətinin mərkəzi olmuşdur. Bu mədəniyyət Cənubi Qafqazda Gürcüstanı, Şərqi Anadoluda Van və Əhlətdən başlayaraq Qarsa qədər böyük ərazini əhatə etmişdir. Bu geniş ərazidə yaşayan tayfaların əsas siyasi və istehsal mərkəzləri məhz Naxçıvanda olmuşdur. Çünki Cənubi Qafqaz və Şərqi Anadoluda Boyalı qablar mədəniyyətinə aid yaşayış yerləri və qalalar yoxdur. Bu regionlarda yalnız köçəbə düşərgələrinə rast gəlinmişdir. Demək olar ki, bu düşərgələr Naxçıvan tayfalarının hərəkət yolları üzərində olmuşdur.

Qazançı qalasından Boyalı qablar mədəniyyətinə aid toplanmış yerüstü materiallar çəhrayı və boz rəngli gil məmulatından ibarətdir. Çəhrayı rəngli gil məmulatını küpə və kasa tipli qabların qırıqları təşkil edir. Onların gilinə narın qum qatılaraq yaxşı bişirilmişdir. Gil məmulatının bir qismini boyalı keramika təşkil edir. Onların üzəri qara rənglə həndəsi motivdə naxışlanmışdır. Çəhrayı rəngli gil qab qırıqlarının birinin üzərində göbələkvarı çıxıntısı vardır. Onun gilinə narın qum qatılmış, çəhrayı rəngdə bişirilmişdir. Xarici səthi uzunsov çərtmələrlə naxışlanmışdır. Çəhrayı rəngli gil məmulatının bir qrupu forma verməyən qırıqlardan ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanmaqla keyfiyyətli bişirilmiş, səthi qırmızı boya ilə örtülərək qara rəngdə naxışlanmışdır. Naxışlar üfüqi, şaquli və çəpinə çəkilmiş xətlərdən ibarət olub, əsasən, həndəsi xarakterdədir. Çəhrayı rəngli gil məmulatında, o cümlədən boyalı parçalarda Naxçıvan Boyalı qablar mədəniyyətinin bütün xüsusiyyətləri əks olunmuşdur ki, bu da Qazançıqalanın Orta Tunc dövrü mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu göstərir.

Orta Tunc dövrü mədəniyyətinin başlıca göstəricilərindən biri olan keramika məmulatı Qazançıqalanın uzun müddət müdafiə istehkamı kimi istifadə olunduğunu sübut edir. Tədqiqat zamanı qaladan e.ə. II minilliyin sonu üçün xarakterik olan boz rəngli keramika, həmçinin Əhəmənilər dövrünə aid keramika parçaları aşkar olunmuşdur.

Aşkar edilmiş arxeoloji materialların təhlili əsasında deyə bilərik ki, Naxçıvanın ən qədim qalalarından biri olan Qazançıqala e.ə. III-I minilliklər ərzində fəaliyyət göstərmişdir. Qazançıqalanın ətrafında həmçinin qədim nekropol yerləşir. Nekropol indiyədək tədqiq edilməmişdir. Şübhəsiz ki, bu qalada gələcəkdə aparılacaq tədqiqatlar Azərbaycan tarixinin yazılmamış səhifələrini üzə çıxarmağa imkan verəcəkdir.

**Vəli BAXŞƏLİYEV**
**AMEA-nın müxbir üzvü**

## Fransada keçirilən beynəlxalq konfransda Naxçıvan tarixi ilə bağlı elmi məruzə dinlənilmişdir

***Bu il dekabrın 4-5-də Fransanın Sen Jermen şəhərində yerləşən Milli Arxeologiya Muzeyinin təşkilatçılığı ilə "Son Tunc və Erkən Dəmir dövründə Xəzər dənizi ətrafındakı ərazilərdə əlaqələr" adlı beynəlxalq konfrans keçirilmişdir.***

Konfransda Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan və İran ərazilərində aparılan arxeoloji qazıntıların nəticələri haqqında dünyanın tanınmış alimləri məruzələr etmiş, mədəniyyətlərarası əlaqələri öyrənməyə çalışmışlar. Bu beynəlxalq konfransda Azərbaycan alimlərinin dörd məruzəsi dinlənilmişdir. Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı və həmin muzeyin Arxeologiya fondunun müdiri, tarix üzrə fəlsəfə doktoru Nasir Quluzadə "Milli Azərbaycan Tarixi Muzeyinin Son Tunc və Erkən Dəmir dövrü mədəni irsinin öyrənilməsində rolu" mövzusunda çıxış etmiş, Azərbaycanın bu dövr maddi-mədəniyyəti və onun araşdırılması haqqında geniş məlumat vermişlər.

AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və onun tələbəsi Svetlana Ağasoylu "Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti" mövzusunda məruzə etmiş, bu dövrdəki mədəniyyətlərarası əlaqələr haqqında məlumat vermişlər. Bu dövrdə Azərbaycanın qərbində və Naxçıvanda yaşayan tayfaların Urartu dövlətinə qarşı vahid ittifaqda birləşdiyi faktlarla göstərilmişdir.

Professor Mişel Kazanovanın və tarix üzrə fəlsəfə doktoru Abuzər Ələkbərovun "Son Tunc və Erkən Dəmir dövründə Cənubi Qafqazda dəfn adəti və ritual" adlı məruzəsi xüsusilə maraqla qarşılanmışdır. Tədqiqatçılar Azərbaycanın cənub bölgələrində apardıqları yeni tədqiqatları əvvəlki tədqiqatlarla müqayisəli şəkildə öyrənərək regionda yaşayan qədim tayfaların dəfn adətini və ritualları bərpa edə bilmişlər.

Xəzər Universitetinin dosenti, Berlindəki Qafqaz Araşdırmaları İnstitutunun direktoru Nuridə Atəşi vaxtilə Almaniya vətəndaşlarının Azərbaycan ərazisində apardığı arxeoloji materialları təhlil edərək onların elm aləminə yanlış şəkildə tanıdıldığını qeyd etmişdir. Konfrans iştirakçıları bu tip saxtakarlıqların yolverilməz olduğunu bildirmiş, tədqiqatçının araşdırmalarını dəstəkləmişlər. ABŞ, Fransa, Almaniya, İspaniya və digər ölkələrdən gəlmiş tədqiqatçıların da əsərlərində Azərbaycan abidələrinə müəyyən qədər yer verilmişdir. Konfrans müvəffəqiyyətlə başa çatmış, məruzələrin toplu halında çap olunması və gələcəkdə daha geniş konfransların keçirilməsi, Xəzər hövzəsi mədəniyyətlərinin geniş araşdırılması zəruri hesab edilmişdir.

**Xəbərlər şöbəsi**

## İctimai Səhiyyə və İslahatlar Mərkəzi Naxçıvanda yeni metodikanın təqdimatını keçirib



Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi ölkəmizin doğuşayardım tibb müəssisələrində göstərilən tibbi xidmətlərin davamlı olaraq yüksəldilməsi üçün yeni metodikanın təqdimatı ilə əlaqədar görüşlər keçirir. Növbəti görüşə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi ev sahibliyi edib.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Sona Məmmədova tədbirdə çıxış edərək bildirib ki, bu gün ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosialyönümlü siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Son illər bu sahədə mühüm tədbirlər həyata keçirilib. Ana və uşaqların sağlamlığının qorunması üzrə dövlət proqramının, həmçinin yenidoğulanların "Elektron sağlamlıq kartları" ilə təmin edilməsi, yoluxucu xəstəliklərin immunoprofilaktikası proqramlarının ana və uşaqların sağlamlığının qorunması işində əhəmiyyətli rolu olub. Son illərdə muxtar respublikamızda həyata keçirilən bu tədbirlərin nəticəsində ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur. Doğum göstəricisinin artması, ölüm göstəricisinin isə aşağı düşməsi nəticəsində təbii artımın yüksəlməsində tibbi qulluq və səhiyyə xidmətləri də əhəmiyyətli rol oynayır. Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə də müsbət təsir göstərir.

Sonra Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Monitorinq və təhlil şöbəsinin həkim-metodisti Afət Məmmədova "Hamiləliyin ağırlaşması və ya hamiləlikdə həyata təhlükə törədən halların aradan qaldırılması metodikası"nı təqdim edib.

Seminar-treninqdə iştirak edən ginekoloq, anestezioloq, mama və doğuşayardım göstərən tibb bacılarına hamiləliyin ağırlaşması və ya hamiləlikdə həyata təhlükə törədən halların aradan qaldırılması metodikasına dair broşür və bukletlər paylanıb, onları maraqlandıran suallar cavablandırılıb.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanova belə tədbirlərin həkim və orta tibb işçilərinin peşə bacarıqlarının artırılmasında mühüm rolunu qeyd edərək qonaqlara minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Yeni tamaşaya ictimai baxış olub

***M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında şair-dramaturq Zaur Vedilinin Azərbaycan xalq nağıllarının motivləri əsasında yazılmış "Çalıb-çağıran" pyesi əsasında hazırlanmış tamaşaya ictimai baxış olub.***



Tamaşada ədalət, mərhəmət, qorxmazlıq, insanlara məhəbbət kimi mənəvi-əxlaqi dəyərlər təbliğ edilir. Tamaşanın quruluşçu rejissoru, Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanova, quruluşçu rəssamı Murad Babayev, bəstəkarı Əli Məmmədovdur. Marionetka üslubunda hazırlanmış tamaşada kuklaları teatrın aktyorları İbad Nəbiyev, Süleyman Süleymanov, İlham Babayev, Arzu Səfərov, Vəsmə Quliyeva, İlqar Babayev, Ulduz Süleymanova, Əfsanə Əsgərova səsləndirirlər. Balaca tamaşaçılar folklorumuzun ənənəvi personajları olan padşah, qarı, əjdaha və başqa maraqlı surətləri görəcəklər. Şən mahnılar, maraqlı tərtibat uşaqların zövqünə uyğun hazırlanıb. Qeyd edək ki, Naxçıvan Dövlət Kukla Teatrında səhnəyə qoyulan bu pyes müəllifin uşaqlar üçün yazılmış beşinci pyesidir.

Tamaşaya ictimai baxışdan sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşlarından Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev, Əli Rzayev, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımov, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanova, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşıyev, müəllif Zaur Vedili və başqaları çıxış edərək tamaşa haqqında fikir və rəylərini bildiriblər.

Tamaşanın gələn həftənin sonlarında uşaqlara təqdim olunması nəzərdə tutulub.

**Əli RZAYEV**

***Bildiriş***

"Düdəngə Şərab" Açıq Səhmdar Cəmiyyətinin (VÖEN-0700302271) təşkilati-hüquqi forması dəyişilərək "Düdəngə Şərab" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 928